

# HÜSEYN ARİF 80

2004

2004
1594

Ш5
А88

2004

BAKI NƏŞR

ƏDALƏT M.VƏLİYEV
ADALAT M. VELIYEV

747418

76533

# HÜSEYN ARİF 80

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Ш5(2=Аз)

**AMEA**

NİZAMİ GƏNCƏVİ ADINA AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

Redaktor: f.e.d. prof. Rafael Hüseynov
Tərtibçilər: prof. Qəzənfər Paşayev
f.e.n. Gülzar İbrahim qızı

© AMEA NİZAMİ GƏNCƏVİ ADINA
AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ, 2004

...SİLİNMƏZ TARİXDƏN İZİ ŞAİRİN...

**Xalq şairi Hüseyn Arif (Hüseynzadə)** 1924-cü ildə Qazax rayonunun Yenigün kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Bakı Pedaqoji Texnikumunda təhsilini davam etdirmişdir. Əmək fəaliyyətinə müəllim kimi (1940-1942) başlamışdır. İkinci Dünya müharibəsi dövründə döyüşən ordu sıralarına çağrılmış, ordudan tərxis edildikdən sonra ADU-nun (indiki BDU) Şərqşünaslıq fakültəsində (1946-1951) təhsil almışdır. 1951-1952-ci illərdə Moskvada M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun aspiranturasında oxumuşdur.

Hüseyn Arif ədəbi fəaliyyətə İkinci Dünya müharibəsi illərində başlamışdır. Onun librettosu üzrə «Azad» (1957) tamaşası M.F.Axundov adına Opera və Balet Teatrında, «Yolda» poeması əsasında eyni adlı pyesi (1974) Gənc Tamaşaçılar teatrında səhnəyə qoyulmuşdur.

Şair «Dağ kəndi» poemasına görə «Qızıl oraq» mükafatına (1971) layiq görülmüşdür. Əsərləri keçmiş SSRİ və bir sıra xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuş, şerləri Azərbaycan və rus şöbələrində dərsliklərə düşmüşdür.

Hüseyn Arif Azərbaycanın «Xarici ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti»ndə şöbə müdiri (1957-1959), «Azərnəşr»in bədii ədəbiyyat redaksiyasında böyük redaktor (1965-1967), «Gənclik» nəşriyyatında bə-

dii ədəbiyyat redaksiyasının müdiri (1967-1968), Azərbaycan Aşıqlar Birliyinin sədri (1982-1992) vəzifələrində işləmişdir. 1984-cü ildə «Aşıqlar Birliyi» nəzdində fəaliyyətə başlayan «Aşıq Pəri» məclisinin yaradıcılarından biri olmuşdur. 1991-ci ildə Azərbaycan Yazıçılar Birliyinin Ağsaqqallar Şurasının üzvü seçilmişdir.

Hüseyn Arif 1992-ci il sentyabrın 14-də vəfat etmiş və Ağstafada dəfn olunmuşdur.

Hüseyn Arif bədii yaradıcılığa öz səsi, öz sözü, öz cığırı ilə gəlmişdir. Sonralar bu cığır parlaq üfüqlü coşqun bir ümmana yol açdı. 80-90-cı illərdə isə şairin sənət dünyası ədəbi təkamülünün zirvəsinə ucaldı.

Hər bir yaradıcı ziyalının şəxsiyyəti onun sənətinin məğzini, məqsəd və mahiyyətini, mənəvi bütövlüyünü şərtləndirir. Bu mənada Hüseyn Arifin istər epik poemalarının, istərsə də kiçik həcmli şerlərinin hər qatında dərin lirizm, təbiət və insan psixologiyasının harmonik təsviri, həyata və zamana fərdi münasibət, xüsusən Azərbaycan folkloruna, aşıq yaradıcılığına (dastan, qoşma, təcnis, müxəmməs, qıfılbənd, gəraylı və i.a) bir yaxınlıq, bir doğmalıq, bir məhrəmlik hakimdir. Haqlı fikirdir ki, Hüseyn Arif poeziyası kükrəyib çağlayan saf bulaqdır. Təsadüfi deyildir ki, onun nəğməyə bənzər şerlərinə onlarla mahnı bəstələnmiş, görkəmli bəstəkarların şairin «Sən mənimlə get», «Mən inanmadım», «Qonşu qız», «Dedim, dedi», «Xatırla məni», «Şer deyilmi», «Mən sülhə səs verirəm», «Könül deyir yaşa hələ» kimi bəstələdikləri nəğmələr dillər əzbəri olmuşdur. Xalq təfəkkürünə yaxınlıq, məntiqi kamillik, fəlsəfi dərinlik onun poetikasının əsas dayaq nöqtəsidir.

Milyon naxış vurur bahar torpağa,
Güvənib hüsnünə: – Baharam! – demir.
Zirvə buz bağlayıb, bürünür ağa,
Donur axşam-sabah: – Donuram! – demir.

Palıd sakit qalxıb, səssiz boy atır,
Söyüd dirçəlməmiş özünü dartır.
Gölməçə harayı qulaq batırır,
Ümman dilə gəlib: – Mən varam! – demir.



Lirik vüsət, həzinlik, psixoloji ovqat təzadlı müqayisələrlə elə ustalıqla qələmə alınmışdır ki, şerin ecazkar qüvvəsi oxucunu məftun edir. Həyatı təbii axarında görmək, insanda insanlığı, mənəviyyatı qoruyub saxlamaq, yaxşılıq, mərdlik, düzlük kimi humanist keyfiyyətləri aşılamaq Hüseyn Arif qələminin ən önəmli cəhətidir:

Şair ol, rəssam ol, mütəfəkkir ol,
Ellər dünyasında inam ol, pir ol.
Üz olmaq istəsən iki yox, bir ol,
Astarı yeyilmiş üzə bənzəmə.

Məğrur dağ kəli tək yaşa dağda sən,
Qatlama dizini bəd ayaqda sən,
Düz olmaq istəsən bu torpaqda sən,
Çəmənsiz, çiçəksiz düzə bənzəmə.

Zənnimizcə, bu şer parçasında insanlığın həqiqi həyat fəlsəfəsi ifadə olunmuşdur.

Azərbaycan klassik ədəbiyyatından bəhrələnən şair Səməd Vurğunu özünün ustadı və mənəvi müəllimi hesab etmişdir. Bu barədə o, «Böyük sənətkar» məqaləsində yazır: «Səməd Vurğun əsl milli şair, milli sənətkardır. Qəlbinin bütün telləri ilə öz kökünə bağlıdır. Nizamilərin, Füzulilərin, Vaqiflərin, Sabirlərin, Qurbanilərin, Alıların, Ələsgərlərin layiqli varisi, davamçısıdır».

Hüseyn Arif məşhur «Yolda» əsərində Səməd Vurğun kimi əsrin fövqündə dayanan böyük şəxsiyyətin, klassik şairin zəkalı və nurlu ömür yolunu nəzmə çəkməklə sənətə və sənətkara olan münasibət və rəğbətini izhar etmişdir.

Hüseyn Arifə görə saz və söz sənəti ilahi vergidir, hikmətdir, müdrik babalarımızdan qalan qiymətli mirasdır.

O, «Sazın tellərindədir» şerində yazır:

Həyatın ilkindən, yaranışından,
Sazla tutulubdur mayamız bizim.
Elə dədələrə nəvələrik ki,
Ayrıla bilmərik öz kökümüzdən.

Çal, aşıq, Növrəslər qalxsın ayağa,
Çal, o «Qaraçı»nı, o «Müxəmməs»i,
«Cəngi»lər, «Misri»lər axsın qulağa,
Hər hava bir əsrin səs abidəsi.

Hüseyn Arif sözə həssaslıqla yanaşır, sözü yerində işlətməyi, xalqın dili ilə danışmağı bacarır, ən mürəkkəb fəlsəfi fikri o qədər rəvan, sadə dillə və aforizmlərlə ifadə edir ki, oxucu dərhal şairin məqsəd və amalını duyur, onun zehnində qatı açılmayan, müəmmalı bir nöqtə qalmır.

Şairin irili-xırdalı bütün əsərlərinə diqqət yetirsək, insanla təbiətin əsrarəngiz gözəlliyi arasındakı üzvi vəhdətin, canlı əlaqə və oxşarlığın şahidinə çevririlik, insan təbiətin bir parçasıdır – qənaətinə gəlirik.

Meşələr, qoymayın itsin bulaqlar,
Çeşmələr pozulsun, çaylar pozulsun,
Nəğmələr, qoymayın sussun dodaqlar,
Qayalar, qoymayın qartal yorulsun.

Lalələr, qoymayın düzlər boş qala,
Buludlar, qoymayın göylər boşalsın,
Çiçəklər, qoymayın bülbül lal ola,
Gözəllər, qoymayın şair qocalsın.

Ümumiyyətlə, Hüseyn Arifin bədii istedadından və coşqun təbindən doğan hər bir sətir, ifadə və söz – insanlığa, humanizmə xidmət edir. Məhz bu yüksək amala söykəndiyinə görə böyük şair həm sənət salnaməsində, həm də doğma xalqının yaddaşında əbədi qalacaqdır.

Qəzənfər PAŞAYEV, f.e.d., professor
Gülzar İBRAHİM QIZI, f.e.n.





Sığmaz kitablara sözüm, söhbətim,
Yolumda həm şəfəq, həm çisək oldu,
Gecəli – gündüzlü fikrim, niyyətim,
Soyumu, kökümü öyrənmək oldu.

«Mənim köküm-soyum olan Qaçaq Kərəmin, babam Bala Hüseynin (anadan olanda babam Hüseynin adını mənə qoydular), Zal qızı Gülnaz nənəmin, dağ cüssəli İsrafil ağamın və İsgəndər dayımın barəsində çox eşitmişəm. Həyatım boyu bu mərd insanların adı ilə fəxr etmişəm. Yaşa dolduqdan sonra bu qüdrətli şəxsiyyətlərin ömür yolunu nəzmə çəkmişəm.»

Hüseyn Arif



Məleyкə xanım Hüseynzadə
(şairin həyat yoldaşı)

Haranı bəyənib seçəsi olsam,
Oraya, ey sənəm, sən mənimlə get.
Bir gün bu dünyadan кöçəsi olsam,
Təк onda deməıəm sən mənimlə get.

Hüseyn Arif





Hüseyn Arif övladları – Səhər, Arif və Zöhrə ilə birliкdə

Hüseyn Arif Allahın istedadla təltif etdiyi xoşbəxt şair idi. Hüseyn dünyaya şair gəlib və şair də getdi.

Sənin ilhamına söz ola bilməz.
Yanmayan ocaqda кöz ola bilməz.
Dağ şəlaləsisən, çağla, əzizim,
Quyuya ha su töк, o dola bilməz.

Mirvarid Dilbazi (xalq şairəsi)

## XATIRLA MƏNİ

Sevirəm çəməndə gülü-çiçəyi,
Gələndə ilк bahar xatırla məni!
Öpsün alınları dağlar кüləyi,
Güləndə ruzigar xatırla məni!

Fəsillər dolanıb, ötdüкcə zaman,
Vaxt olur həyatda dəyişir insan.
Mən səni unudan deyiləm, inan,
Sən də, ey gözəl yar, xatırla məni!

Hüseyn Arif



Hüseyn Arif ailəsi ilə birlikdə.
Soldan: Şairin həyat yoldaşı Məleyкə xanım,
oğlu Arif, anası Qəndab xanım,
qızı Səhər və Hüseyn Arif

Elə кi, balalar gəlir dünyaya,
O gündən hey ölçüb, biçir analar.
Mahnı da oxuyur, şer də deyir,
Bəstəкar analar, şair analar.

Dözür hər əzaba o bilə-bilə.
Yaşayır, sirrini salmadan dilə.
Vaxt olur, qaldırıb ağını belə
Şərbət əvəzinə içir analar.

Unudub illərin yorğunluğunu,
Həyatda dincliyi, evdə yuxunu;
Sevincin azını, qəmin çoxunu,
Yüкün ağırını seçir analar...

Özüm də bilmirəm Hüseyn, niyə?
Başımın tüstüsü çəкilir göyə.
Torpağım anasız qalmasın deyə
Torpağın qoynuna кöçür analar?

Hüseyn Arif





Hüseyn Arif əsgər dostu ilə Böyüк Vətən müharibəsi illərində.
Ufa, 1945-ci il.

Mən yazmadım: – gələcəyəm,
Gözlə, yar məni.
– Gözlə! – desəm, gözləyənə,
Qınayar məni.
Yağdı yağış, əsdi кüləк,
Qara da düşdüm.
Vuruşlarda neçə кərə
Dara da düşdüm.
Elə oldu qələm tapdım,
Varaq tapmadım.
Qələm tapdım, varaq tapdım,
Boş vaxt tapmadım.
Döyüşün də öz höкmü var,
...Öz qərarı var.

Hüseyn Arif

Hüseynin qələmi poeziyada olduğu кimi, nəsrdə də güclüdür... Qızıl кülçə halında, bir də zərrə halında olur. Hüseyn Hüseynzadə yaradıcılığı Azərbaycan poeziyasında кülçə halında olan qızıldır.

Rəsul Rza (xalq şairi)

Hüseyn Arifin şerləri diridir, canlıdır, oxucu ilə bərabər nəfəs alır. Bu şerlər Dədə Qorqud sazından doğulmuşdur. Ona görə də dağ suyu qədər büllur, nəğmə qədər cingiltilidir. Hüseyn gördüyü adamları, onların duyğu və düşüncələrini ümumiləşdirib sənətin şaqraq dilinə çevirir...

Bəxtiyar Vahabzadə
(xalq şairi)



Azərbaycan Dövlət Universiteti
(indiki BDU) Şərqşünaslıq fakültəsinin tələbə və müəllim heyəti.
Sağda aşağı sıradan birinci Hüseyn Hüseynzadə

Xoş gündə xoş üzlü, xoş danışıqlı,
Saz tutub, söz deyib ötəndi dostlar.
Dar gündə özünü atıb üstünə
Səsinə, ününə yetəndi dostlar.
...Ölüm çətin deyil düşünən kəsə,
Dostlardan ayrılmaq çətindi, dostlar.

Hüseyn Arif

Başdan dilimizin olmuş əzbəri,
Könül mahnıları, ürək sözləri,
Cəlilin, Cavidin ayaq izləri,
Ölməz yadigarı Naxçıvandadır.

Hüseyn Arif





Hüseyn Hüseynzadə, Cabir Novruz, Fərman Eyvazlı,
Əli Kərim və başqaları



Moskva, 1951-ci il.
Hüseyn Hüseynzadə, Nazim Axundov, Oqtay Hüseynzadə və b.

Söz var ki, qaşla, gözlə dedin,
Söz var, onu sözlə dedin,
Hüseynə: Gözlə! – dedin
Ömür gözləsə gözlərəm.

Hüseyn Arif

## AZƏRBAYCANIN

**(Azərbaycanın böyük oğlu Heydər Əliyevə ithaf olunub)**

Şəfəqlər qoynunda bəsləyir bizi,
Açılan səhəri Azərbaycanın.
Şerə, şeriyyətə səsləyir bizi,
Hər yeni zəfəri Azərbaycanın.

Qubada bahardı, Qazaxda yazdı,
Muğandan, Şirvandan nə desəm azdı,
Əzəldən bu günə Kürdü, Arazdı
Belinin кəməri Azərbaycanın.

Torpaq ətir saçır, gül ətir saçır,
Ətalət başını götürüb qaçır.
Yenidən doğulub qol-qanad açır,
Hər кəndi, şəhəri Azərbaycanın.

Dağ dağı özünə arxa sanıbdır,
Dağın arxasında dağ dayanıbdır.
Qəhrəman xalqına arxalanıbdır
Qəhrəman rəhbəri Azərbaycanın.

 **Hüseyn Arif**





Respublikanın rəhbəri Heydər Əliyev Ağstafa dəryaçasının açılışı mərasimində, 1971.

## MƏN SÜLHƏ SƏS VERİRƏM

Mən sülhə səs verirəm, –
Milyonlardan biri təк –
Qoy bir daha ordular
Üz-üzə dayanmasın.

Mən sülhə səs verirəm, –
Bombaların səsindən
Beşiкdəki кörpələr
Hıçqırıb oyanmasın.

Mən sülhə səs verirəm, –
Böyüк кəndlər, şəhərlər
Viran olub qalmasın
Tüstü-duman içində.

Mən sülhə səs verirəm, –
Qədim abidələri
Yerlə yeкsan etməsin
Toplar bir an içində.

Mən sülhə səs verirəm, –
Ağ saçlı anaların
Gözləri yaşla dolub
Qəlbi darda qalmasın.

Mən sülhə səs verirəm, –
Cavan qızlar, gəlinlər
Baxıb-baxıb yollara
İntizarda qalmasın.

**Hüseyn Arif**





Azərbaycan Yazıçılar İttifaqında



M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

## QONŞU QIZ

Uşaqкən oynadıq biz bir bağçada,
Əsla yorğunluğu salmazdıq yada.
Dolaşıb yanaşı çəmənliкləri
Həvəslə toplardıq tər çiçəкləri.

Çıxardıq çölə, biz gülə-gülə,
Verib əl-ələ, qonşu qız.
Açmaq istərəm bu gün кönlümdən
Keçən sözləri, qonşu qız.

Qəlbimin həmdəmi sən idin,
Niyə məndən кüsüb-incidin?
Yanıma gələrdin hər məni görəndə,
Əlvan çiçəкlərdən çələnglər hörəndə.
Onu əlimdən alıb qaçardın...
Quş təк uçardın, qonşu qız.
Soruşma nədir bu əhvalatlar
Xoş xatirədir, qonşu qız.
Biz də yaşa dolduq ötdüкcə illər,
Nə tez varaqlanıb кeçdi fəsillər.
Uşaqlıq anları qaldı arxada,
Arabir düşünüb salıram yada.
Gəl biləк qədrini hər anın,
Tüкənməz arzusu insanın.
Bahardan bahara salamlar yetirəк
Bu ömrün bağından ətirli gül dərəк.
Gəl əvvəlкi təк biz gülə-gülə,
Verəк əl-ələ, qonşu qız.

Hüseyn Arif





İslam Səfərli, Hüseyn Arif, Həmid Araslı,... Süleyman Rəhimov, Mirzə İbrahimov və b.



Hüseyn Arifin professor Qəzənfər Paşayevə həsr etdiyi «Qocaldım» şerinin əlyazması



## QOCALDIM

(Əzizim Qəzənfər üçün–29.II.92)

Gəzdim qarış-qarış ana torpağı,
Nə yaxında, nə uzaqda qocaldım.
İsti, soyuq heç varmadım fərqinə
Nə aranda, nə yaylaqda qocaldım.

Məlhəmdi dağ moruğu, bağ narı,
Hər кimsənin öz istəyi, öz yarı.
Görməyəndə qədir bilən dostları
Çil-çırağlı ağ otaqda qocaldım.

Altmışımda zirvələri aşanda,
Yaş on beşdi! – Söyləmişəm bu anda.
«Millət!» – deyə – satqın coşub-daşanda
Belə çağda, belə vaxtda qocaldım.

Hüseyn Arifəm, yaxşılara yananam,
Ömür boyu yamanlara yamanam.
Sevinəndə – qoca iкən cavanam,
Qəmlənəndə – cavanlıqda qocaldım.

 Hüseyn Arif
(Şer ilк dəfə çap olunur).

Çiçəklər incəlik, güllər zəriflik,
Sünbüllər bərəkət gətirir bizə.
Dərələr dərinlik, düzlər genişlik,
Zirvələr əzəmət gətirir bizə.

Şimşəyin havada şimşək zəngi var,
Selin sel, çayın da çay ahəngi var,
Bir qövsi-qüzehin neçə rəngi var,
Naxışlar şeriyyət gətirir bizə.

Hüseyn, ömrümüz təkər üstədir,
Qocalıq dövr edir, gənclik dövr edir.
Gedəni təbiət aparıb gedir,
Gələni təbiət gətirir bizə.

**Hüseyn Arif**

Hüseyn Hüseynzadə qələmə aldığı irili-xırdalı bütün əsərlərini poetik yüksəkliyə qaldırmağı ustalıqla bacaran bir sənətkardır.

**Əliağa Kürçaylı (şair)**

Dağ başına qar gəlir,
Yollar, izlər dar gəlir,
Dünən düşündüklərin
Bu gün sənə ar gəlir.
Yaş əllini aşanda.

**Hüseyn Arif**

Müasir Azərbaycan şerinin... yaradıcılarından biri olan Hüseyn Arif füsunkar poeziya aləminə qədəm qoyduğu gündən öz dəruni səmimiyyəti və təbiiliyi ilə insanların məhəbbətini qazanmışdır.

**Mirzə İbrahimov (xalq yazıçısı)**





Hüseyn Arif, Ələkbər Ziyatay,... Hüseyn Abbaszadə, Əhməd Cəmil və b.

Hüseyn Arif şerinin bir qanadı el-aşıq poeziyasından güc alırsa, o biri qanadı divan poeziyasının fəlsəfi məzmunu ilə açılır.

**Yusif Günaydın**

Bir durna üzülüb qaldı qatardan,
Bir durna gözünü açdı yuvada.
Bir budaq qırılıb qopdu çinardan,
Bir budaq dirçəlib süzdü havada.

Bir qartal vurulub, göydən enəndə,
Bir qartal qıy vurub, zirvələr aşır.
Bir şair qələmi buza dönəndə,
Bir şair sinəsi çağlayıb daşır.

**Hüseyn Arif**



...İslam Səfərli, İsmayıl Şıxlı, Osman Sarıvəlli, Süleyman Vəliyev, Əliağa Kürçaylı, Hüseyn Arif və b.



## ŞER DEYİLMİ?!

Məndən təzə şer xəbər alan dost,
Bəs yazın gəlməsi şer deyilmi?!
Gəzməyə çıxanda – çölün, çəmənin
Üzünə gülməsi şer deyilmi?!

Yenə gözüm qalıb bağçada, bağda,
Min-min gül açıldı aranda, dağda.
Eyvana əyilən çarpaz budaqda
Bülbülün nəğməsi şer deyilmi?!

Seyr elə hüsnunu göydə durnanın.
Qayada кəkliyin, göldə sonanın.
Aynabənd otaqda gəlin anamın
Şirin laylay səsi şer deyilmi?!

Dərədə moruq dər, döşdə çiyələк.
Gah yağış xoş gəlir, gah sərin кüləк.
Yaş ötür, doymayır dünyadan ürəк, –
Yaşamaq həvəsi şer deyilmi?!

Kim deyir şerin meydanı dardır?
Sonu görünməyən bir ilк bahardır.
Necə кi, həyat var şer də vardır, –
Həyatın nəfəsi şer deyilmi?!

Hüseyn Arif



Hüseyn Arif saz-söz məclisində



Qazax. Hüseyn Arifin həmyerliləri ilə görüşü

Tüstü məni elə boğdu şəhərdə,
Dağın, daşın dumanına min şükür.
Küləк qopdu, toz torpağa qarışdı,
Çölün, düzün tufanına min şükür.

Hüseyn Arif



Hüseyn Arif və Məmməd Rahim





Hüseyn Arif və İsmayıl Şıxlı

Hüseyn Arifin şerlərində sözlərin sıralanması, təbii axarı, кəlmələrin tərкibindəкi səslərin belə cərgələnməsi o qədər sadədir, ürəyəyatımlıdır кi, adam şer oxuduğunu hiss etmir, elə zənn edir кi, кiminləsə sadəcə söhbət edir. Laкin bu söhbətin elə gözəl, elə incə və elə zəngin poetiк düşüncə tərzi, elə obrazlı təfəккürü var кi, buna heyran qalmaya bilmirsən. Xalq poeziyası Hüseyn yaradıcılığının iliyinə, qanına hopmuşdur.

İsmayıl Şıxlı (xalq yazıçısı)



Hüseyn Arif və İmam Mustafayev

Bugünkü Azərbaycan şerini həyatımızın, əsrimizin qəhrəmanlıq və rəşadət, məhəbbət və sədaqət salnaməsi adlandırsaq, onun neçə-neçə gözəl səhifəsini mənsub olduğun nəslin adından şəxsən sən yazmısan, dostum Hüseyn.

Nəbi Xəzri (xalq şairi)



Əhməd Cəmil və Hüseyn Arif

Əbəs yaranmayır yarananda o,
Silinməz tarixdən izi şairin.
Alovla yoğrulub, nurla bəzənib,
Torpaqla bərkiyib dizi şairin.

...Sevinci işıqlı səhər olubdur,
Kədəri zülmətdən betər olubdur.
Dililə dillərdə əzbər olubdur,
Dərəsi, təpəsi, düzü şairin.

Yarası vətənin ağır yarası,
Çarası həyatda haqqın çarası...
Cibində tükənər pulu, parası,
Ürəkdən tükənməz sözü şairin.

Hüseyn Arif



QOCALAR

Gah çəliyə dirsəklənib dayanır,
Gah daş üstə dincin alır qocalar.
Gah əlini saqqalına aparıb
Dərin-dərin fikrə dalır qocalar.

Ağrıyanda özü doyar özündən,
Yaş süzülər, qəm ələnər gözündən.
Uşaq kimi uşağın da sözündən,
Tez tutulub, tez darılır qocalar.

Yaxın başa, yad ayağa çəkəndə,
Biri bağa, biri dağa çəkəndə,
Gəlin sola, oğul sağa çəkəndə
Ümidini daşa çalır qocalar.

Cavanlığın qoxusunu itirib,
Tay-tuşların çoxusunu itirib,
Gecə yarı yuxusunu itirib,
Sübhə kimi oyaq qalır qocalar.

Can neyləsin, hökmü verən zamandı,
Gözdən düşüb, sandan çıxmaq yamandı.
A yoldaşlar, a qardaşlar, amandı,
Göynətməyin, kövrək olur qocalar.

Əsən külək, yarpaq tökən budaqdı,
Döyən yağış, sönüb keçən ocaqdı,
Necə deyim, iki günlük qonaqdı,
Axşam açıb, sabah solur qocalar.

Ey Hüseyn, gənclik hara, sən hara!..
Dolu gəlir, sür köçünü kənara.
Qocalıqmı çəkən səni onlara,
Qocaları yada salır qocalar.

Hüseyn Arif

Ana dilində yazan hər şairin dillə davranışı, sözü ram etmək bacarığı yalnız onun ustalığının deyil, həm də millətə nə səviyyədə xidmət etməsinin göstəricisidir.

Hüseyn Arif şerində güc var. Bu güc Azərbaycan dilinin gücüdür. Həmin gücü öz şerində bunca əlçatmaz sadəliklə üzə çıxara bilmək Hüseyn Arifin gücüdür.

Rafael Hüseynov
(professor, millət vəkili)



Tofiq Mütəllibov və Hüseyn Arif

Hüseyn Arif ... çox müdrik idi. Sözün əsl mənasında şair idi... İlk gündən son gününəcən şair ömrü yaşadı.

Vaqif Səmədoğlu
(xalq şairi, millət vəkili)



Hüseyn Arif və Tofiq Bayram



Baş ağarar vaxtlı-vaxtsız,
Ələnən qar dağ üçündür,
Verəndə hökmünü payız
Xəzan bağça-bağ üçündür.

Qoşun çəkər bulud göyə
Dolu gələr döyə-döyə,
Ağrıma, – demə ürəyə,
Ürək ağrımaq üçündür.

Yanma halına solanın
Gözü qan-yaşla dolanın.
Əzəli torpaq olanın
Axırı torpaq üçündür.

Hüseyn Arif



Hüseyn Arif, Cabir Novruz və başqaları

İfadəni yerli-yerində işlətmək, xalq yaradıcılığından, poeziyamızın böyük ənənələrindən bəhrələnmək, sözün dadını, duzunu, tutumunu, çəkisini və ən əsası isə yerini bilmək nöqteyi-nəzərindən Hüseyn təkrarolunmaz sənətkardır. O, aşıq yaradıcılığını, ... el şairlərimizi, dastanlarımızı, bayatılarımızı... demək olar ki, əzbər bilir. Yaddaşı xalq yaradıcılığının canlı ensiklopediyasıdır.

Cabir Novruz (xalq şairi)



Zəlimxan Yaqub və Hüseyn Arif

Hüseyn Arifin yaşı altmışı keçəndə də, ömrünün son günlərini yaşayanda da onun poeziyasında... ocaq istiliyi, çeşmə duruluğu, bulaq saflığı vardı. Bu duruluq, bu saflıq onun xalqından-millətindən, elindən-obasından, yurdundan-yuvasından, dilindən-gülüstanından... süzülüb gəlirdi. Şair kimi yaşadı, qəlbinin səsinə qulaq asdı, duyan könülləri sazın-sözün laylasına tutdu...

Hüseyn Arif mənim üçün unudulmaz müəllim, qayğıkeş ustad, tükənməz yaddaş xəzinəsi, bənzərsiz və özünəməxsus bir insan idi.

Şerlərim haqqında ilk dəfə uğurlu yol yazan Hüseyn Hüseynzadəni ömrüm boyu unutmaram.

Babaların hikmətinə ləl dedin,
Nəvələrə qucaq açdın, gəl dedin.
Torpaq dedin, vətən dedin, el dedin,
Ulus deyib, ulu qalan sən oldun.

Ötgün sözün qılınc oldu, ox oldu,
Başın üstə qeylü-qallar çox oldu.
Çox cığırlar itdi, batdı, yox oldu,
Öz cığırı, yolu qalan sən oldun.

Zəlimxan Yaqub
(şair, millət vəkili)



DEDİM – DEDİ

Dedim: – Rüşvətdən əl çək!
Dedi: – Bir adətdir bu,
Düzəldirəm
düzəldir –
Hörmətə – hörmətdi bu.

Dedim: – Hakimsən axı,
Hakim düz ölçüb, biçər.
Dedi: – Məxfi məsələ
Məxfi söhbətdən keçər.

Dedim: – Əqidə, məslək?..
Bunlara nə deyirsən?
Dedi, – Ey qafil qağa,
Şairsən ki, şairsən!..

Maddə var əlimdə
Bəmi çəkib, zil eylər.
Beş il, beş günə dönər,
Beş günü beş il eylər.

Bir oyun açaram ki,
Adın düşməz yadına.
Lap Nizami baban da,
Gəlib çatmaz dadına.

Dedim: İnandım buna,
Yanıma düşdü qolum.
Dedi: Bir də, danışma.
Dedim: Deməmiş olum.

Hüseyn Arif



Hüseyn Arif Azərbaycan yazıçı və şairləri arasında



Sabir Azəri, Əli Vəliyev və Hüseyn Arif

Görə bilməyəndə fikrin dolaşar,
Görəndə xəyalın zirvələr aşar.
Sevinc yaxın düşər, qəm uzaqlaşar,
Vətəndə, ikinci vətəndi dostlar.

 Hüseyn Arif



Aslan Aslanov, Əli Kərim və Hüseyn Arif



Rəfiq Zəka Xəndan, Hüseyn Arif, Ağamusa Axundov

Ustad! Gözlərimə zülmət çöküldü,
Könlüm damla-damla çağlayan kimi.
Köksümdən vuruldum, bağrım söküldü,
Ağrın ürəyimi dağlayan kimi.

Yetər ki, eşqinlə ötər könüllər,
Ötdükcə fəsillər, keçdikcə illər.
Yazını elliklə saxlayar ellər,
Yasını elliklə saxlayan kimi...
...Dilini qanmayan dillərmi vardır?
Dərdinə yanmayan sellərmi vardır?
Bağlarmı tapılar, tellərmi vardır,
Rəfiqi Hüseynə bağlayan kimi?!

Rəfiq Zəka Xəndan (şair)





Hüseyn Arif qələm dostları ilə Kür çayı sahilində

O, sağlığında canlı klassik adlandırılan, ömrü əfsanəyə, dastana dönən sənət xoşbəxti idi.

Damladakı dəryanı, zərrədəki dünyanı, adilikdəki qeyri-adiliyi görüb, göstərə bilirdi, ruhun dibsiz dərinliklərindən, sonsuz səmalarından xəbər gətirir, soraq verirdi onun şerləri. Ona görə bu şerlər könüllər fatehi, duyğular sarvanı idı; əksəriyyəti nəğməyə dönüb, ruhu neçə minillik köhnə dolaylarda təzə bir şövqlə qanad çalırdı...

O, Ağstafa–Oğuztəpədə adi bir evdə, sadə bir ailədə dünyaya gəldi. Şerlərilə adi dünyanın min bir qeyri-adiliyini yenidən kəşf etdi. Beləcə, özü demişkən: «Bir ömrün tarixi bir dastan oldu»; möcüzə şerləri ilə yeni bir dünya yaratdı Hüseyn Arif.

Sadıq Elcanlı

Bağla qapıları, bağla, sevgilim,
Qapansın bir anlıq pəncərələr də;
Sən də ayağını saxla, sevgilim,
Qoy dursun nə varsa-durduğu yerdə.
Vurğunu olsam da hər şirin səsin,
Hələlik qulağım səs eşitməsin.
Fikirlər, duyğular aləmindəyəm,
Ürəkdir sinəmdə yalnız dillənən,
Düşünmək, düşünmək istəyirəm mən.

Hüseyn Arif

Fikrimdə birləşir ellərin yolu,
Qarşımda uzanır izlər, cığırlar.
Hər şəhər bir təzə işıqla dolu,
Hər kəndin öz ətri, öz cəlalı var.

Qoşqar vüqarımdır, Kəpəz qüdrətim,
Gözümdən Göy gölün şəkli getməsin.
Kürün sahilində sözüm-söhbətim,
Milin sinəsində izim itməsin.

Hüseyn Arif



Nəsib Ələkbərli, Hüseyn Arif və İsa İsmayılzadə



Bir zaman sənətdən söhbət düşəndə
Çoxları adına bəxtəvər dedi.
O vaxtlar sevincin padşahı idin,
Kədərin, həsrətin şahısan indi.

Adil deyər dağdan böyük qəlbin var,
Sənin olsun balan kimi balalar!
Zarafatın, sözün, şerin Hüseyni,
Arifi də Hüseyn Arif yaşadar.

Adil Rəsul (şair)

Hüseyn Hüseynzadənin bir sənətkar kimi xoşbəxtliyi ondadır ki, onu başqalarından fərqləndirən orijinallıq – novatorluğa gətirib çıxarmışdır. Hüseyn Arifin yaradıcılığında hər şey millidir, varlığımızın bədii əksidir. O, xalqın hikmətini sənət süzgəcindən keçirib, cilalayıb, yenidən xalqa qaytarır.

Şamil Qurbanov (professor)



Hüseyn Arif akademik Cəlal Allahverdiyevlə

MEŞƏBƏYİ

Kef üstündə кefimizi
Gəldi, sordu meşəbəyi.
– Buyur! – dediк, atdan enib,
Bardaş qurdu meşəbəyi.

Qamçısını atdı sola,
Çantasını çəкdi dala.
Şirin-şirin, bala-bala
Bizlə vurdu meşəbəyi.

İsti кabab, təzə fətir.
Doymaq olmur, yenə gətir.
Bığlarını arada bir
Eşib burdu meşəbəyi.

Altmışını verib yelə,
Düşməyibdir ruhdan hələ.
Qarşıdaкı bir gözələ
Göz də vurdu meşəbəyi.

Yatdı biri – кeflənərəк,
Birini də yıxdı кüləк.
Hüseynlə axıradəк
Möhкəm durdu meşəbəyi.

Hüseyn Arif



Hüseyn Arif poeziyası işığında





Soldan: Misir Ələsgər, Hüseyn Arif, şairin qızı Səhər, oğlu (sağdan) Arif və Arifin dostu Fuad

Hüseyn Hüseynzadənin şer dünyası heç кəsi xatırlatmayan bir sənətкar dünyasıdır. Onun sənətкarlıq fərdiliyinin əsas səbəbi də budur. Sevilə-sevilə oxunan şairin qələmə aldığı hisslər, problemlər insanla birliкdə yaranıb, insanla da yaşayacaqdır. Onlar... hər zamanın, hər yaşın adamına tanışdır. Elə buna görədir кi, qiymətə çox xəsis olanlar belə «Hüseyn əsil şairdir!» – höкmünü böyüк bir daxili inamla verirlər. Hüseyn Arif dilinin doğmalığı, mövzusunun dərinliyi, sadəliyi ilə hər кəsi heyrətləndirir.

Xudu Məmmədov (professor)

Şair olan Koroğlu təк mərd olar,
Bir günü xoş, min bir günü dərd olar.
İpəк кönlü polad кimi sərt olar,
Doğru sözdür: polad sınar, əyilməz!

Hüseyn Kürdoğlu



Abram Plavnik, Vidadi Babanlı,... Hüseyn Arif, İsmayıl Şıxlı...

Anası Hüseyni şair doğmuşdu. Özü demişkən, zehninə, beyninə, bütün varlığına yalnız şer idi hakim.

Vidadi Babanlı (yazıçı)



Özbəkistanda Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə.
İsmayıl Şıxlı, Hüseyn Arif, Nəriman Həsənzadə...

Qalır qulağımda ustad söhbəti,
Oxudu şerimi əlində qələm.
Vurğunla başlanan böyük sənətin,
Zirvəsi Hüseyndir, ətəyi mənəm.

Nəriman Həsənzadə (şair)





... İlyas Tapdıq, Hüseyn Arif, aşıq Zülfiyyə, Aydın Çobanoğlu və b.

Mən Hüseynin şerlərinin ta uşaqlıqdan vurğunuyam. Onun şerləri ilə bir daha tanış olduqdan sonra şairin riyaziyyatçı olmaq həvəsinin yaradıcılığında qəribə bir təzahürünü gördüm, təbiətə həssas münasibət doğrudan da riyazi dəqiqliklə verilir.

...Səsin ellərə düşüb,
Eşqin tellərə düşüb.
Sözün dillərə düşüb
Vurğunun sözü kimi.

İlyas Tapdıq (şair)

Ürəklə sazımı çaldım əzəldən,
Ürəklə dilimdə dil açdı vətən.
Ürəklə yurd saldım ürəklərdə mən
Yüz sözüm, söhbətim elə tanışdır.

Hüseyn Arif

## AY MİRZƏ DAYI!

(Aşıq Mirzə Bayramova)

Mən beşikdə ikən telli sazınla
Laylamı sən çaldın, ay Mirzə dayı.
Yenə dilləndirdin «Yanıq Kərəmi»
Canıma od saldın, ay Mirzə dayı.

Ağır toylar gördün, nişanlar gördün,
Mahaldan-mahala atını sürdün.
Gəlinlər gətirdin, qızlar köçürdün,
Çox nəmərlər aldın, ay Mirzə dayı.

Sənət meydanında imtahan olur,
Səsin tutulanda könlüm qan olur,
Hüseynin əhvalı pərişan olur.
Sən niyə qocaldın, ay Mirzə dayı?

Hüseyn Arif



Hüseyn Arif dostlar arasında

...Həyatı, insanları yaxşı tanıyan, məddahlıqdan uzaq, həmişə öz sözünü, düz sözünü deyən Hüseyn Arif həm təbiət şairi, həm insanlıq şairi idi.

Müzəffər Şükür (şair)





Hüseyn Arif dostlar arasında.
Ağstafa şəhəri, Aşıqlar evi.

...Mən Leninqradda olarkən Ermitaja getdim... A.S.Puşkinin həyat və yaradıcılığını əks etdirən sərgidə «Şairin ağır günündə dostların sözü» lövhəsində ilk öncə A.S.Puşkinin sağında Lermontovun, solunda isə M.F.Axundovun şəkli vurulmuşdu... divar boyunca... Puşkinin ölümünə həsr olunmuş bədii mətnlər muzeyə gələn tamaşaçıların nəzər-diqqətini cəlb edirdi. Mən həyəcan içində M.F.Axundovun portretinə baxırdım... Bu zaman Afrikadan gələn qonaqlar Mirzə Fətəlinin şəkli önündə sanki fərağət dayanmış, onun nurani sifətinə heyranlıqla tamaşa edirdilər. Bütün bunları müşahidə edərək muzeyi böyük qürur, fəxr və şöhrət hissilə tərk etdim.

Hüseyn Arif



Praqa. Hüseyn Arif, İrji Marek, Lüdvik Toman

## MƏN İNANMADIM

Dedilər: – Əhdini danır o ceyran;
Dedim: – Yalan olar! – Mən inanmadım.
Dedilər: – Qış gəlir, qayıt bu yoldan,
Əsdi yel, yağdı qar, mən inanmadım!

Dedilər: – Gözləmə o gülyanağı,
Dedim: – Ürəyimə çəkməyin dağı.
Dedilər: Toyudur, – bir axşam çağı
Dindi saz, ötdü tar, mən inanmadım!

Hüseyn Arif

Əzizim Hüseyn!... Moskvadakı kitablarının müvəffəqiyyətlə tərcümə olunmasına çox şadam. ...Sənin «Oqonyok» jurnalındakı şerlərin böyük uğur qazanmışdır. Rus oxucusu tərəfindən sevilə-sevilə oxunur.

Qasım Qasımzadə (şair)
Moskva, 7/IV-1964



Hüseyn Arif və teatrşünas İlham Rəhimli





Hüseyn Arif Sumqayıt teatrının aktyorları arasında



Hüseyn Arif dostları ilə

Bu yerlər nə qədər gözəl olsa da,
Unuda bilmirəm Qazaxı, dostlar.
Gözümün önündə gəlib canlanır
Hərdən dəli Kürün qırağı, dostlar.

...Mən doya bilmərəm torpaqdan, sudan,
Ötək Kəsəməndən, keçək Poyludan.
Qalxıb Sac dağına söküləndə dan,
Seyr edək yaxını-uzağı, dostlar...

Hüseyn Arif

Hüseyn Arif poeziyası конкret çağın, müəyyən bir dövrün poeziyası deyil, bütün zamanların poeziyasıdır. Onun duyğular aləminə, кönül mülкünə heç кimin və heç nəyin müdaxiləsinə imкan verməmişdi, onun, öz təbirincə desəк, «çeşmə duruluğunu» qoruyub saxlaya bilmişdi.

Məsiağa Məhəmmədi (filoloq-şərqşünas)

Nə müddətdir geniş sinən
Dolub təlaşla Təbrizim.
Boğma yarıda səsini,
Başladın, başla, Təbrizim.

Yanma oda diri-diri,
Şərqin qoca cəngavəri.
Parçala paslı zənciri
Dəmirlə, daşla, Təbrizim.

Anaların alnında tər,
Ayrılıq ölümdən betər.
Əl verib görüşməк istər,
Qardaş qardaşla, Təbrizim.

Hüseyn Arif

Cəmi iкi-üç addım...
Bu izdən o izəcən.
Araz uzanıb gedir,
Çeşmədən dənizəcən.
...Ərşdə cövlan eylədim
– Marsa nə var –
söylədim.
Necə uzaqmış –
dedim,
Baкıdan Təbrizəcən.

Hüseyn Arif



Hüseyn qardaş, vətən birdi, el birdi,
Məsləк birdi, кönül birdi, dil birdi.
Ayrı deyil, Muğan birdi, Mil birdi,
Hicran qoymur bir sataşsın göz-gözə.

Güləcəк arzumuz, əməllərimiz,
Sinədə paslanmış diləкlərimiz.
Sevinclə dolacaq ürəкlərimiz,
Çənlibeldən səs yetişsə Təbrizə.

Nazim Kitab Eloğlu
(təbrizli şair)

Möhnət dolu məкtubunu oxudum,
Olan oldu, bu gerçəкdir, Eloğlu.
İкi ürəк bir sinədə döyündü,
İкi ürəк bir ürəкdir, Eloğlu.

... Daha neylər bərə bizə, bənd bizə,
İnsafdırmı həsrət qala göz-gözə.
Balaların toy günündə Təbrizə
Arif dostun gələcəкdir, Eloğlu.

Hüseyn Arif



İstanbul. Hüseyn Arif və Mustafa Kamal Atatürкün qızı Ülgi xanım

Başqadır кönlümün eşqi, məramı
Əslimə, nəslimə, söz vermişəm mən.
Atatürк atamı, Arif balamı
Sinəmin üstündə gəzdirəcəm mən.
Ağzımdan son nəfəs çıxana кimi
Göydə bəxt ulduzum axana кimi...

Hüseyn Arif

Türкiyədə Yunis İmrənin 700-illiк yubileyində iştiraк edərкən biz aşıq və ozan sənətlərinin həm Türкiyədə, həm də Azərbaycanda təbliği problemlərini də müzaкirə etdiк. Bunlar iкi qardaş xalqın gələcəкdə bir-birinə daha da yaxınlaşmasına, hər iкi mədəniyyətin qarşılıqlı zənginləşməsinə səbəb ola bilər.

Hüseyn Arif

Hərdən... xəyalım...Əsкipara yolu qədər tanış, doğma və əziz olan Kazım кörpüsündən, İbrahim кörpüsündən кeçir. Həmin yol mənbəyini Zal qızı Gülnaz nənənin sazlı, sözlü sinəsindən götürür, özünə neçə dədə ozanın və... onların simsarı aşıq Mirzənin söz bulağından qanad taxır... bu yol el müdriкliyindən başlayır... İbrahim кörpüsündən кeçib gələn, göy qurşağı təк rəngarəng... bir şairin... Hüseyn Arifin ömür yoludur bu yol... şeriyyətə gedən yoldur... bu yol.

Vaqif Nəsib (yazıçı)

Hüseyn Arif xalqın ruhundan qopmuşdu və xalqın ruhu qədər əbədidir.

Sabir Rüstəmxanlı (şair, millət vəкili)





Hüseyn Arif saz və söz sevənlər arasında

Hüseyn Arifin şair varlığında odu sönməz sənət eşqi yaşayır. Onun bədii xəyalı əzəli qüvvətini təbiətdən, zəngin folкlordan, ulu sazdan aldı. Şairin şer üslubunun ana xətti – sadə bədii gözəlliк, bu saf qaynaqdan gəlirdi. Ruhumuzun abi-həyatı olan bu başlanğıcla ayrılmaz bağlılıq - şerinin məhəк daşına çevrildi. Burdan hafizəsinə nəqş edilən təsəvvürlər, həqiqətlər onun yaradıcı axtarışında yeni tərzdə mənalandı.

Camal Mustafayev (professor)

Dədə Qorqud ustadım,
Qurbani qol-qanadım,
Abbas arzum, muradım,
Alı vicdanım mənim.

Hüseyn Arif



Hüseyn Arif aşıqlar arasında

Aşıq poeziyasının ölməzliyi onun bəşəri hiss və duyğulara əsaslanmasıdır... Söz ustalarının, sinədəftərlərin yaratdıqları nağıl və dastanlar sözün əsl mənasında səyyari xalq universitetinə çevrilmiş, bu universitetdə nəsillər zaman-zaman kamala dolmuş, qədim adət-ənənələrini, keçmişlərini öyrənmiş, vətənə, torpağa vurğun kəsilmişlər... Mən hələ uşaq ikən Əsədin, Mirzənin, Qədirin, Nağının, göyçəli Yunisin, Müseyibin və başqa ustadların sazına-söhbətinə qulaq asmış, aşıq şerinin çoxunu vərəqə, sinəmə köçürmüşəm. Heç şübhəsiz, şer həvəsinin əsası kökümlə-soyumla bağlıdırsa, digər tərəfdən sazla oyanıb, sazla yuxuya getməyimdən irəli gəlir.

Hüseyn Arif





Zəlimxan Yaqub, Həmid Abbas, Hüseyn Arif və b.

## KÖNÜL DEYİR: – YAŞA HƏLƏ

Səfərdəyəm, səfərimi
Vurmamışam başa hələ.
Arzularım, əməllərim
Toxunmayıb daşa hələ.

Dolanıb kəndi, şəhəri,
Dağlarda açdım səhəri.
Fikrim gəzir üfüqləri
Dönüb qızıl quşa hələ.

İlləri yola salmışam,
Şer yazıb, saz çalmışam
Ömür deyir: – Qocalmışam,
Könül deyir: – Yaşa hələ.

Hüseyn Arif



Hüseyn Arif adına Ağstafa musiqi məктəbi

Dilə gəlib ürəyimin fəryadı,
Qorumadıq Hüseyn adlı ustadı.
Hardan alaq bu atəşi, bu odu,
Hər bir ağac belə meyvə bitirməz.
Beləsini zaman bir də yetirməz.
Hər məclisdə bil, sözünü deyirlər,
Yanılmadın yol-izini deyirlər,
Qorumadın sən özünü deyirlər,
Qorusaydın, Hüseyn Arif olmazdın
Milyonların yaddaşında qalmazdın!

Həmid Abbas (şair)





Ağstafa şəhəri. Xalq şairi Hüseyn Arifin ev muzeyinin görünüşü

Xalq şairi Hüseyn Arifin ev muzeyi Ağstafa şəhərində yerləşməклə, Respubliкa Nazirlər Kabinetinin 24/XII-1992-ci il tarixli 692 saylı qərarına, Mədəniyyət Nazirliyinin 05/II-1993-cü il tarixli 29 saylı əmrinə əsasən yaradılmışdır.

Muzeyin yaradılmasında əsas məqsəd Hüseyn Arif irsinin saxlanılması, təbliği, inкişaf etdirilməsidir. Xalq şairi Hüseyn Arifin ədəbi irsinin təbliği məqsədilə muzey əməкdaşları tərəfindən mütəmadi olaraq mədəni-ədəbi tədbirlər кeçirilir, şairin həyat və yaradıcılığını əкs etdirən səyyar sərgilər hazırlanır.

Muzeyin nəzdində «Hüseyn Arif ədəbi birliyi» fəaliyyət göstərir. Birliк ayda bir dəfə gənc şair və ədəbiyyatsevərlərlə görüşlər кeçirir.

Muzeyə gələn el aşıqları, elm və dövlət xadimləri, mədəniyyət işçiləri, şair və yazıcılar, tanınmış şəxsiyyətlər və b. xatirə кitabına ürəк sözlərini və təəsüratlarını yazmışlar.

Gülgün Kərimov
(Ağstafa rayon Mədəniyyət şöbəsinin müdiri)

Mən sənə təsəlli vermirəm qardaş,
Təsəllin yazdığın şerlər olsun.
Sənət sarayında qoyduğun hər daş
Sənə həm təsəlli, həm hünər olsun.

Nigar Rəfibəyli (xalq şairi)

Hüseyn Arifin ən böyüк müкafatı el sevgisi idi. Allahın ona bəxş etdiyi müкafat isə sadəliк və fitri istedad idi.

Fəzail İbrahimli (professor)



Hüseyn Arifin nəvələri Tural və Günel

Başına dolanar, ucalar başın,
Sudan duru, güldən göyçəк nəvələr.
Bülbüllər təк necə verir səs-səsə,
Şirin avaz, açıq üræк nəvələr.
Baba! – deyib,
– Nənə! deyib, qaçarlar,
Qucaqlardan qucaqlara uçarlar.
...Evə şölə, eşiyə nur saçarlar,
Üzü çıraq, teli ipəк nəvələr.

Hüseyn Arif



1995-ci ildə şairin ömür-gün yoldaşı Məleyкə xanım mənə telefon açaraq Hüseyn Arifin sənədlərini arxivə təhvil verməк qərarına gəldiyini bildirdi. Hələ şairin sağlığında (1967) Azərbaycan Respubliкası Dövlət Ədəbiyyat və İncəsənət arxivində açılmış 199 saylı Hüseyn Hüseynzadə şəxsi fonduna 40 qovluq da əlavə edildi. Sənədləri, əlyazmaları, məкtubları, кitabları, şəкilləri, qeyd dəftərçələrini və bu кimi qiymətli materialları elmi-texniкi cəhətdən xronologiya üzrə, arxiv qanununa uyğun sistemləşdirərкən şairin mənə dediyi bir sözü yadıma duşdu: «Oğul, müqəddəs iş görürsən, bizi diri iкən əbədiləşdirirsən. Bütün əlyazmalarımı sizin xəzinəyə verəcəyəm». Bu söhbətdən sonra illər кeçdi... Müxtəlif hadisələr Hüseyn müəllimi кövrəltdi, o, Hüseyn Arif oldu... Yaşadı, yaratdı... Xalqımızın unudulmaz sənətкarına çevrildi. Yadigar sözləri isə 199 saylı şəxsi fondunda əbədiləşdi...

Maarif Teymurov
(Salman Mümtaz adına Azərbaycan Respubliкası Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin direкtoru)

Dilinə vurğun oldum,
Dili dilimdən mənim.
Ulusu ulusumdan,
Eli elimdən mənim.

Fiкir fiкir dalınca
Ağım qaralı qaldı.
Bir gəlin həsrətiylə
Bağrım paralı qaldı.
Bir qız gördüm, türк qızı
Nurdan yoğrulmuş aydı.
Arif yadıma düşdü
Kaş Arif sağ olaydı.

Hüseyn Arif




Arif Hüseynzadə (1955-1976)



Çiskinli dərəyəm, dumanlı düzəm,
Ömrümün çırağı keçəndən bəri.
Vətəndə vətənsiz, evdə evsizəm,
Arifim dünyadan köçəndən bəri.

Qəza bir qapını bağlamayıbdır,
Bizim qapımızı bağlayan kimi.
Füzuli Məcnuna ağlamayıbdır,
Hüseyn Arifə ağlayan kimi...

Hüseyn Arif

Bilirəm, ağırdır oğulsuz günlər,
Bilmirəm nə deyim, qüssən azalsın.
Boşalt ürəyini, şer sevənlər
Sənin qəm tacına qoy ortaq olsun.

Davud Nəsib (şair)



Şairin həyat yoldaşı Məleykə xanım və oğlu Arifin məzarı.
Ağstafa.





Qızı Zöhrə xanım Hüseynzadə şairin qəbri üstə.
Ağstafa, 1999.

## OLANDA DA HÜSEYN ARİF OLASAN

Sözü haqdan, özü dağdan gəlirdi,
Təbiəti yoxlamaqdan gəlirdi,
Qəbristandan, ağlamaqdan gəlirdi,
Xatirələr həm çətindi, həm asan,
Olanda da Hüseyn Arif olasan!

Gül dibində söz deyəsən, güləsən,
El dilində ağlayasan, güləsən,
Məhəbbətdə gördüyünü görəsən,
Təbiətdən aldığını alasan,
Olanda da Hüseyn Arif olasan!

Çıxmısanmı dağ kəlinin yanına?
Baxmısanmı dağ kəlinin donununa?
Batmısanmı dağ kəlinin qanına?
Qan ağlayıb olmusanmı peşiman?!
Olanda da Hüseyn Arif olasan!

Nə ağlayın, nə də yas qurun, – deyib,
Başdaşıma Arif yazdırın, deyib,
Siz məni Qazaxda basdırın, deyib,
Öləndə də... Hüseyn Arif olasan!
Olanda da Hüseyn Arif olasan!

Barat Vüsal (şair)

**Dəyişir yerini aylar, fəsillər,**
**Nəsillər yurdunda yeni nəsillər...**
**Ötür qərinələr, keçir əsrlər,**
**Yenə çeşmə – çeşmə, dərya – dəryadır.**

**Sıxlaşır getdikcə saçlarımda dən,**
**Baxışımda bulud, gülüşümdə çən,**
**Axı, necə deyim – Əbədiyəm! – mən.**
**Həqiqət – həqiqət, xülya – xülyadır.**

**Ey qartal, zirvədə möhkəm uç, yenə,**
**Ey çəmən, süfrəni geniş aç yenə.**
**Ey günəş, varlığa şəfəq saç yenə**
**Mən oldum – olmadım,**
**dünya – dünyadır.**

Hüseyn Arif

## Hüseyn Arif-80


BAKINƏŞR

Bədii tərtibat və kompüter qrafikası
«BAKINƏŞR»

Dizayner T.Məlik [illegible]

Çapa imzalanmışdır 05.10.04.
Format 84×108 1/32.
Ş.ç.v. 3,36. F.ç.v. 4.
Qarnitur Palatino_Az
Ofset üsulu.
Təbaşirli kağız.




2004
1594

Nizami Muzeyi

2004

BAKI NƏŞR